

# Vətənə məhəbbət hissi

*Haqqında söhbət açacağımız qabaqcıl mədəniyyət işçisini yəqin ki, hamınız tanıyırsınız. «Mədəni-maarif»lə daim əlaqə saxlayır, maraqlı yazıları, diqqətçəkən təşəbbüs və təklifləri ilə digər həmkarlardan çox fərqlənir.*

Ulduzə xanım Qurbanova artıq neçə illərdir ki, Tərtər MKS-nin direktoru vəzifəsində çalışır. Daim yeniliklərə can atır, işini günün tələbləri səviyyəsində qurur.

Ulduzə xanımın keçirdiyi tədbirlər içərisində hərbi-vətənpərvərliklə bağlı görüş və söhbətlər daha çox maraq doğurur. Mərkəzi kitabxana sistemi və kənd kitabxana filiallarında «Haradan başlanır Vətən?», «Biz sizdən öyrəndik qəhrəmanlığı», «Vətən mənə oğul desə» və s. başlıq altında təşkil olunmuş tədbir, görüş və söhbətlər bu qəbildəndir. Diqqət çəkən məqamlardan biri də kitabxananın məktəblərlə əlaqə yaratması, keçirilən tədbirlərin coğrafiyasını daha da genişləndirməsi, buraya uşaqlarla bərabər müəllim və valideynləri, rayonun nüfuzlu ziyalılarını, əmək və müharibə veteranlarını toplaması, onlara söz verilməsi, görüşlərin canlı aparılmasıdır.

U.Qurbanova söhbət zamanı qarşıda duran vəzifələrdən söz açarkən ölkəmiz müharibə şəraitində yaşadığından bu cür tədbirlərin keçirilməsinin nə dərəcədə vacib olduğunu dönə-dönə vurğuladı.

– Biz bu işdə nazirliyimizin qərar və göstərişlərini əldə rəhbər tutur, kitab sərgiləri təşkil edir, hərbi hissələrə baş çəkir, çağırışçıların ordu sıralarına təntənəli surətdə yola salınması tədbirlərində də yaxından iştirak edirik. Bütün bunlar sözümüzlə əməlimiz arasında vəhdət təşkil etdiyindən uşaq və gənclərlə apardığımız söhbətlərin əhəmiyyətini bir az da artırır.

X.ASLANOVA